# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 25** **Bakı şəhəri, 27 yanvar 2023-cü il**

***“Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 317 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə”nin 20-ci hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 317 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1231; 2018, № 7 (II kitab), maddə 1656, № 8, maddə 1804; 2019, № 3, maddə 563, № 5, maddə 971, № 12, maddə 2077; 2021, № 5, maddə 514) 1-ci hissəsinin “Kollegiyanın üzvləri:” bölməsində “identifikasiyası” sözü “monitorinqi” sözü ilə əvəz edilsin və həmin bölməyə “hüquq” sözündən sonra “və icra intizamı” sözləri əlavə edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

---

Xalq qəzeti .- 2023.- 31 yanvar.- S.6.